# ÖN SÖZ

Fəlsəfə elmi, müdriklik bütün elmlərdən qədimdir. Çünki insan mədəniyyətə qovuşduğu gündən humanitar və mexaniki elmlərdən daha çox və daha əvvəl həyatda səhv etməməyə, daha çox qazanc əldə etməyə və nəticədə yaxşı yaşamağa, yəni məhz müdrikliyə can atmışdır. Lakin uzun minilliklər məktəb, yazı-pozu, o dövrlərin humanitar və texniki elmlərinin əlifbasını öyrənməyə xidmət etmiş, insanın həyat və yaşamaq qaydası, ağıllı davranış yolu barədə bilgiləri isə yalnız valideynlərindən əxz etdiyi qədər olmuşdur. Bu isə əlbəttə, çox mürəkkəb və çətin məktəb olan insan həyatı üçün heç vaxt kifayət etmirdi. Ona görə ağıllı şəxslər həmişə həyat qaydalarını öyrənməyə, insanlarla çoxillik gərgin təmaslarda uğur qazanmaq üçün bu uğurun yollarını və sirlərini əxz etməyə can atırdılar. Amma adi insanlar sadəcə yaşamaq üçün, hökmdarlar, bəy və xanlar isə idarə etmək üçün öyrənirdilər. Birincilərə çətin başa gələn bu iş ikincilər üçün elə bir problem yaşatmırdı. Onlar asanlıqla öz ölkələrindəki ağıllı adamları ətraflarına yığıb, onların biliklərindən və söhbətlərindən həm zövq alır, həm də əməli işlərində faydalanırdılar. Çox vaxt onlar hətta müdriklərin bu zəngin xəzinəsini inhisara alıb, onun çap olunub yayılmasına belə qısqanclıqla baxırdılar. Təsadüfi deyil ki, makedoniyalı İsgəndər Aristotelə məktub yazaraq, biliklərini sistemli şəklində nəşr etdirdiyinə üçün böyük filosofu qınamışdı.

Lakin Platon və Aristotel Hind və Çin fəlsəfi məktəbləri, klassik alman fəlsəfəsi böyük və dərin olmaqla bir o qədər də həyatın fövqündədir və hələ də milyonlar üçün əlçatmaz və dərkolunmaz olaraq qalır. Ona görə insanlara, hər səhər evdən çıxıb işə, bir növ döyüş meydanına gedən sıravi adamlara, ən çox isə yenicə həyata atılan gənclərə həyatda onların əlindən tutacaq biliklər çox lazımdır. Bu cür biliklər xəzinəsini yaradanlara ən parlaq nümunə XVII əsr İspan yazıçısı və mütəfəkkiri Baltasar Qrasiandır. Qrasianın əsərləri çoxdur və onların ən məşhuru və gözəli heç şübhəsiz ki, "Kamillik elmi" fəlsəfi traktatıdır. Qrasian həyat müdrikliyinin, mənəvi biliklərin Aristoteli sayıla bilər.

"Kamillik elmi" əsərinin daha vacib bir cəhəti onun insan mənəviyyatına, insan əxlaqına verdiyi qiymət və hər aforizmdə mənəvi gözəlliyin son nəticədə insana gətirdiyi qələbələrin labüdlüyünə olan inamdır. Bu 300 müdrik kəlamın toplandığı mücrü kimin beyninə və qəlbinə hakim olarsa, o şəxs həyatda heç vaxt ədalətsiz bir addım atmaz və haqsızlığa dözməz.

Bir neçə il bundan qabaq nəşr olunmuş "Dünya filosofları" kitabında Qrasianın "Kamillik elmi" əsərindən bir neçə aforizm ilk dəfə Azərbaycan dilində çap olunmuşdu. Bu gün isə oxucular bu dahiyanə əsəri tam şəkildə öz doğma dillərində oxumaq imkanı əldə edir.

Beləliklə, əziz oxucu! İnanırıq ki, əgər gəncsənsə bu əsər sənin üçün məktəb, yaşlısansa – təsəlli olub, masaüstü kitabına çevriləcək.

**Əlisa NİCAT**

**1. Artıq hər şey, ən çox da şəxsiyyət kamilləşib.** İndi bir müdrikdən daha çox kamillik tələb olunur, nəinki keçmişdə yeddisindən[1]. Vaxtilə bütöv bir xalqla rəftarda lazım olduğundan daha çox məharət indi bir adamla rəftarda lazımdır.

**2. Xasiyyət və mədəniyyət** – insanın bütün məziyyətlərini əks etdirən iki dayaqdır. Biri digəri olmadan yarımçıqdır. Təkcə təhsil azdır, istedadın olması gərəkdir. Cahilin bədbəxtliyi ondadır ki, o, həyat amalını, məşğuliyyətini, doğma diyarda, dostlar arasında yerini seçməkdə səhv edir.

**3. Niyyətini bildirmədən hərəkət et.** Gözlənilməzlik – müvəffəqiyyətin rəhnidir. Açıq oyunun nə xeyri, nə sevinci olar. Öz məqsədini bildirməsən, hamıda, xüsusilə də, yüksək vəziyyətin ümumi intizar doğurduğu, niyyətlərin sirlərə bölündüyü, bu müəmmalı anlaşılmazlığın ehtiram təlqin etdiyi yerdə böyük maraq oyadarsan. Hətta başa düşülmək istədikdə belə ürəyiaçıqlıqdan və səmimilikdən qaç, heç kimin qəlbinə soxulmasına imkan vermə. Təmkinlilik kamilliyin məbədidir. Niyyəti açıqlamaq onu məhv etmək deməkdir, belə halda onun qüsurları qabaqcadan aşkar edilər, müvəffəqiyyətsizliyə uğramaq isə ikiqat fəlakət olar. Diqqəti özünə cəlb etməkdən ötrü həmişə ulu Tanrının yolunu tut.

---

[1] Yeddi müdrik deyəndə b.e.ə. VII-VI əsrlərdə qədim Yunanıstanda yaşamış filosoflar və dövlət adamları: Fales, Pittak, Solon, Kleobul, Periandr, Xilon, Biant nəzərdə tutulur. Bəzən onların sırasında Mison və Anaxarsisin də adı çəkilir.

**4. Müdriklik və mərdlik – əzəmətin təməlidir.** Bunlar əbədidir və insana əbədiyyət bəxş edir. İnsan daha çox öyrəndikcə, daha çox insan olur; aqil adam qüdrətlidir. Cahil üçün dünya zülmətdir. Ağıl insanın gözü, qüdrət isə əlləridir. Mərdlik olmasa, müdriklik faydasızdır.

**5. Qoy sənə möhtac olsunlar.** Bütü səcdəgah edən heykəltəraş deyil, ona sitayiş edəndir. Yaxşısı budur ki, səndən xahiş etsinlər, nəinki minnətdarlıq bildirsinlər. Alçaq minnətdarlığa arxalanmaq nəcib ümidləri talan etməkdir. Birinci nə qədər unutqandırsa, ikinci bir o qədər hafizəlidir. Asılı olanlar minnətdar olanlardan daha faydalıdır: susuzluğunu söndürən bulaqdan üz döndərəcək, sıxılmış portağal qızıl qabdan bataqlığa atılacaq. Ehtiyacın sonu dostluğun, sənə edilən qulluğun sonu deməkdir. Ona görə sənin üçün həyatın birinci qaydası belə olsun: sənə olan ehtiyacı saxlamağa çalış, onu tam ödəmə, hətta rəislərinin də qoy həmişə sənə ehtiyacı olsun. Ancaq fikirlərini gizli saxlamaq naminə yalan danışma, aldatma, öz rifahın, xeyrin üçün heç kəsə pislik etmə.

**6. İnsanın yetkinliyi.** İnsan yetkin doğulmur. Ancaq gündən-günə mükəmməlləşərək və işində təkmilləşərək yetkinliyin yüksək zirvəsinə, məziyyətlərinin və üstünlüklərinin tamlığına nail olur. Bu özünü zövqün incəliyində, ağlın itiliyində, mühakimələrin tutarlılığında, arzu və diləklərin təmizliyində büruzə verir. Bəziləri tam yetkinliyə nail ola bilmir, onlarda həmişə nə isə çatışmır. Bəziləri buna gec nail olurlar. Hərtərəfli inkişaf etmiş, sözündə sərrast, işində

ağıllı adam dərrakəli adamların xoşuna gəlir və onlar belə adamla ünsiyyətdə olmağa can atırlar.

**7. Səndən yuxarıda duran adam üzərində qələbədən çəkin.** Qələbə kin, ədavət oyatmaq deməkdir. Öz ağana qalib gəlmək isə ağılsızlıqdır, bəzən isə təhlükəlidir. Üstünlüyünü nümayiş etdirmək hamıda, xüsusən zati-alilərində nifrət yaradır. Gözəlliyi səliqəsiz geyimlə gizlətmək olduğu kimi, cəhd göstərsən öz üstünlüyünü də gizlədə bilərsən. Çoxları, xüsusən də, başçılar ağıldan başqa hər hansı qabiliyyətdə başqalarına güzəştə gedə bilərlər, çünki ağıl bütün qabiliyyətlərin üzərində hökmranlıq edir. Ona azacıq da olsa toxunmaq – bu, böyükləri təhqir etmək deməkdir. Yüksək mərtəbədə duran, elə həmin mərtəbədə də hökmranlıq etmək istəyir. Zati-aliləri köməyi qəbul edirlər, üstünlüyü isə yox. Onlar istəyirlər ki, verilən məsləhət yalnız unutduqları nəyisə yada salmaq məqsədi daşısın, daha başa düşmədikləri bir şey haqqında izahat olmasın. Əyani misal olaraq, ulduzları göstərmək olar: Günəşin bu nurlu övladları heç vaxt onun şöləsinin qabağını kəsməyə cəsarət etmir.

**8. Öz nəfəsinin ağası olmaq – yüksək ruha xas olan xüsusiyyətdir.** Bu yüksəklik ruhu yabançı, alçaq təsirlərdən qoruyur. Özün, öz nəfsin üzərində hakimiyyətdən və ehtiraslarının özbaşınalığı üzərində qələbədən yüksək hakimiyyət yoxdur. Nəfsini cilovlaya bilməyəni mənsəbə, xüsusən də yüksək mənsəbə buraxmaq olmaz: məyusluqdan qaçmağın ən layiqli üsulu, şöhrət qazanmağın ən qısa yolu budur.

**9. Həmvətənlərinə xas olan nöqsanlardan yaxa qurtar.** Su öz keyfiyyətlərini sızıb keçdiyi torpaqdan götürdüyü kimi, insan da yaxşı və pis cəhətlərini doğulduğu diyardan götürür. Göylərin daha iltifatlı olduğu torpaqda doğulanlar Vətənə daha çox borcludurlar. Hətta ən mədəni xalqın da təbii nöqsanları olur. Qonşuları bu barədə ya istehza, ya da bədxahlıqla danışırlar. Bu nöqsanları qaldırmaq və ya onları ört-basdır etmək az məharət tələb etmir. Belə adam həmyurdları arasında istisna kimi şöhrət qazanır – nadir şey qiymətli olur. Bundan başqa soyadla, təbəqə, vəzifə və yaşla bağlı nöqsanlar da olur. Əgər bütün bunlar bir adamda cəmləşərsə və o, bunlardan yaxa qurtarmağa can atmazsa, həmin şəxs dözülməz olar.

**10. Xoşbəxtlik və şöhrət.** Birinci nə qədər dəyişkəndirsə, ikinci bir o qədər daimidir. Birinci həyat, ikinci əbədiyyət üçündür. Birinci həsədə, ikinci isə unudulmağa qalib gəlir. Xoşbəxtliyi arzulayırlar, hərdən ona nail də olurlar, şöhrət isə qazanılır. Şan-şöhrət qazanmaq istəyini şücaət doğurur. Şan-şöhrət həmişə nəhəng şəxsiyyətlərin sirdaşı olub və olacaq, o ifratların yoldaşıdır: ecazkar və ya əcaib olur; valeh edir və ya nifrət yaradır.

**11. Nə isə öyrənə bildiyin adamlarla ünsiyyətdə olmaq.** Qoy dostlarınla ünsiyyət sənin üçün idrak məktəbi, söhbət isə qeyri-adi xoş bir dərs olsun. Dostlarına müəllim kimi bax, dərsdən aldığın faydanı söhbətdən aldığın ləzzət ilə tamamla. Ağıllı adamların dostluğu qarşılıqlı sərfəlidir. Danışan dinləyənin tərifindən faydalanır, dinləyənin isə